# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 163 (1291) 3 sentyabr - 5 sentyabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

**(əvvəli ötən saylarımızda)**

**Rayondakı "Kürdəmir Broyler" ATSC-nın fəaliyyəti genişləndirilmiş, damazlıq ana quşların sayı 14000 başa çatdırılmış, quş əti və yumurta istehsalı artırılmışdır. 589000 ədəd yumurta istehsal olunmuşdur.**

2016 ci ilin 6 ayında rayonda 8500 ədəd müxtəlif ağac və gül kolları əkilmiş, ümumilikdə 15000 ağacın əkilməsi nəzərdə tutulur.

...ması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

2016- cı ilin II rübündə müxtəlif diametrli 252 p/m qaz xəti təmir olunmuş, xidmət sahəsində olan 176 ədəd qaz tənzimləyicilərinə və 303 ədəd siyirtmələrə hər ay texniki xidmət göstərilmiş, mənzillərə texniki baxış keçirilmiş və müqavilələrin yenilənməsi mütəmadi olaraq davam etdirilmişdir.

Hazırda rayonun Pirili, Axtaçı Qarabucaq, Dayıkazımlı, Beyi kəndlərində kodlaşma işləri davam etdirilir.



# BU İNKİŞAF, BU YÜKSƏLİŞ... KÜRDƏMİRDƏDİR

### *Xidmət sahələrinin fəaliyyəti müasirləşir və daha geniş miqyas alır*

Əhalinin elektrik enerjisi, təbii qaz və içməli su ilə təminatının yaxşılaşdırılması rayon İcra Hakimiyyətinin daim diqqət mərkəzində olmuşdur. Dövlət Proqramına uyğun olaraq "Azəriqaz" İstehsalat birliyinin Kürdəmir Xidmət Sahəsi tərəfindən cari dövrdə rayonun mövcud qaz alan yaşayış məntəqələrində təchizatın daha da yaxşılaşdırılması, normadan artıq qaz itkilərinin minimuma endirilməsi, payız-qış mövsümündə bütün kateqoriyalardan olan istehlakçıların təbii qazla fasiləsiz və stabil rejimdə təmin edilməsi istiqamətində və rayonun qaz almayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində ...



Rayonun Qocalı, Türkədi, Xəlsə, Quşlar, Pirəköcə kəndlərində qaz sayğacları quraşdırılmışdır. Carlı və Köhünlü kəndlərində qaz sayğaclarının quraşdırılması davam etdirilir, Muradxan və Mollakənd kəndlərində tikinti quraşdırma işləri maliyyə vəsaiti ayrılmadığına görə müvəqqəti olaraq dayandırılıb.

Artıq rayon mərkəzində SMART tipli qaz sayğaclarının quraşdırılmasına start verilmişdir. Mart-iyun ayı ərzində 273 ədəd SMART tipli qaz sayğacı quraşdırılmışdır.

Rayonun elektirik enerjisi təchizatının yaxşılaşdırılması sahəsində 2016-cı ilin II rübü ərzində 35/10 kv-luq Muradxan, Mollakənd, Pirili, Axtaçı yarımstansiyalarında cari təmir işləri aparılmış, şəhər ərazisində 2,5 km 10 kv-luq hava xətti və 4,5 km 0,4 kv-luq hava xətti yenidən quraşdırılmış, 520 ədəd smartkart tipli sayğac quraşdırılmışdır.

Qarasaqqal Çöhranlı Xirdapay Şilyan kəndlərində istismara yararsız dayaqlar, izolyatorlar və naqillər yenisi ilə əvəz olunmuş, rayon ərazisində 12 ədəd yeni taransformator yarımstansiyası quraşdırılmış, 14 ədəd elektrik transformatoru əsaslı, 48 ədəd isə cari təmir olunmuşdur.

Dövlət proqlamına uyğun olaraq 2016-cı ilin II rübündə Kürdəmir şəhər əhalisinə içməli su və çirkab suların axıdılması üzrə xidmətlərin yaxşılaşdırılması sahəsində müəyyən işlər görülmüşdür. 2016-cı ilin yanvar ayında havaların şaxtalı keçməsi nəticəsində partlayaraq sıradan çıxmış "Alfasu" smart elektron tipli su sayğaclarının 650 ədədinin bir hissəsi mexaniki sayğaclar vasitəsi ilə dəyişdirilərək su itkisinin qarşısı alınmışdır. Lakin sıradan çıxmış su sayğaclarının vaxtında dəyişdirilməməsi səbəbindən əhali tərəfindən suyun israfçılqla istifadə edilməsinə rast gəlinir ki , bu da su itkisinə səbəb olur, su borularında təzyiqin aşağı düşməsinə imkan yaradır.

2016-cı ilin 6 ayında şəhərin H.Əliyev və Bakı prospektləri, M.Ə.Sabir, İ.Məmmədov, Nizami küçələrindəki və Aran qəsəbəsindəki mərkəzi kanalizasiya xətti üzərindəki baxış quyuları lildən təmizlənmiş, sınmış qapaqlar dəyişdirilmiş, xəttin tutulmasının qarşısını almaq məqsədi ilə metal barmaqlıqlar qoyulmuşdur. Hesabat dövrü ərzində Bakı şəhərindən kanalizasiya xətlərini yuyan xüsusi texnika gətirilmiş, şəhərin H.Əliyev prospektində və M.Ə.Sabir küçəsində ümumi uzunluğu 2050 p/m olan kanalizasiya borularının içərisinin lili yumşaldılaraq axın bərpa edilmişdir Şəhərin H.Əliyev prospektində 13 ədəd, Koroğlu küçəsində 3 ədəd, M.Əzizbəyov küçəsində 2 ədəd, 20 yanvar küçəsində 3 ədəd baxış quyusunun yanları betonlanaraq yararlı vəziyyətə gətirilmişdir.

> **"... Sosial infrastruktur, digər layihələr icra edilir və biz növbəti illərdə yəqin ki, daha çox kənd yollarının bərpasına diqqət verməliyik. Bu proses də başlamış, ölkəmizdə geniş vüsət almışdır. Ancaq bildiyiniz kimi, bu, çox böyük vəsait tələb edən layihələrdir və zamana da ehtiyac vardır. Çünki kənd yollarımızın əksəriyyəti yararsız vəziyyətdə idi. Son illərdə bu sahəyə çox böyük vəsait ayrılır və çalışırıq ki, hər bir rayonda heç olmasa bir və ya iki böyük layihə icra edilsin. Ona görə hər bir rayonun kənd yollarının tam şəkildə bərpası bir qədər vaxt tələb edəcəkdir. Ancaq hesab edirəm ki, növbəti beş il ərzində, bəlkə də ondan da tez bütün kənd yolları qurulacaq, tikiləcəkdir.**
>
> ***Azərbaycan Respublikasının Prezidenti***
> ***İlham Əliyev***

2016-cı ilin 6 ayı ərzində rayon Kommunal Müəssisələri Kombinatı şəhərin bütün küçə və meydanlarının daima təmiz və səliqəli saxlanılmasında səylə çalışmış, ərazilərdə olan məişət tullantılarının mütəmadi götürülməsi təmin olunmuşdur. 2016-cı il üçün təsdiq olunmuş smetaya əsasən kommunal xidmətlərin göstərilməsi ilə əlaqədar 1170 fərdi yaşayış evlərinin sahibləri və 90 kommersiya obyeklərinin rəhbərləri ilə müqavilə bağlanmışdır.

**Rayon Kommunal Müəssisələri kombinatı və rayon Mənzil İstismar sahəsi bu sahədə işləri daha da genişləndirməli, tullantıların ərazilərdən vaxtlı-vaxtında götürülməsini təmin etməli, obyekt sahibləri ilə izahat işləri aparmalı, küçə və meydanların təmiz saxlanılmasına diqqəti artırmalıdır.**

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***